


# İNSAN ALVERİNDƏN ÖZÜNÜ QORU !

**IX-XI sinif şagirdləri üçün yaddaş kitabçası**

IOM • OIM

Schweizerische Eidgenossenschaft
Confédération suisse
Confederazione Svizzera
Confederaziun svizra

Federal Department of Foreign Affairs FDFA
Swiss Agency for Development and Cooperation SDC

Azərbaycan Uşaqlar Birliyi

# İNSAN ALVERİNDƏN ÖZÜNÜ QORU !

IX-XI sinif şagirdləri üçün yaddaş kitabçası

**Bu kitabda ifadə edilmiş rəylər müəllif(lər)ə məxsusdur və mütləq qaydada Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) rəsmi mövqeyini əks etdirmir.**

BMqT insani və tənzimlənən miqrasiyanın miqrant və cəmiyyətləri faydalandırma prinsiplərinə sadiqdir. Hökumətlərarası təşkilat olaraq, BMqT aşağıdakı məqsədlərlə öz beynəlxalq tərəfdaşları ilə əməkdaşlıq edir: miqrasiyanın doğurduğu problemlərin həllinə müvafiq kömək göstərilməsi; miqrasiya məsələlərinin dərindən başa düşülməsi; miqrasiya vasitəsi ilə iqtisadi və sosial inkişafın təşviq edilməsi; insan ləyaqətinə və miqrantların rifahına hörmət edilməsinə dair işlərin aparılması.

Bu kitabça Azərbaycan Uşaqlar Birliyi tərəfindən BMqT-nin İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyinin maliyyə dəstəyi ilə həyata keçirilən "İnsan alverinin qarşısının alınması üçün orta məktəb təhsili" layihəsi çərçivəsində hazırlanmışdır.

Nəşr edən: **Beynəlxalq Miqrasiya Təşkilatı**
Bakı, Azərbaycan ofisi
Yaşar Hüseynov 18,
Bakı AZ 1069
Azərbaycan
Tel: +994 12 4659071/72
Faks: +994 12 4659073

E-mail: iombaku@iom.int
Website: http://www.iom.az

**Redaktor:** Faiq Şahbazlı
**Müəllif:** Kamalə Ağazadə
**Texniki heyət:** Ramiz Hacızadə
Günay İbrahimova
**Rəsmlərin müəllifi:** Azərbaycan Rəssamlıq Akademiyasının tələbəsi
Günel Əlakbərova

© 2010 Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT)

**Bütün hüquqlar qorunur. Bu nəşrin hər hansı bir hissəsi naşirin əvvəlcədən yazılı icazəsi olmadan yenidən çap edilə, ilkin formada saxlanıla və ya heç bir elektron, mexaniki, fotosurət, lentə alınan yazı və ya digər formada ötürülə bilməz.**

*Əziz dost!*

*Müasir dünyada yaşayan hər bir gənc müxtəlif üsullarla informasiya əldə etməyə qadirdir. Əldə etdiyin informasiya Sənin üçün o qədər inandırıcı ola bilər ki, onun doğruluğunu yoxlamadan bir çox təhlükələrə düçar ola bilərsən.*

*Bir çox gənclər təhsilini davam etdirmək, perspektivli iş tapmaq, əcnəbi vətəndaşla nikah bağlamaq məqsədi ilə xarici ölkələrə miqrasiya edir. Əlbəttə ki, beynəlxalq səviyyəli universitetlərdə oxumaq, tanınmış şirkətlərdə çalışmaq, sevdiyin insanla ailə həyatı qurmaq arzusu gözəldir. Bu arzulara qovuşmaq üçün, əlbəttə ki, məlumatlı olmaq vacibdir. Xarici ölkəyə miqrasiya etmək üçün kifayət qədər məlumatlı olmaq Səni hər zaman arzuolunmaz vəziyyətlərdən və təhlükələrdən uzaq olmağa kömək edər.*

*Azərbaycan Uşaqlar Birliyinin sədri*
*Kəmalə Ağazadə*

## Miqrasiyanın nə demək olduğunu bilirsən?

**Miqrasiya** - insanların beynəlxalq sərhəddən keçərək və ya ölkə daxilində yerdəyişməsi prosesidir[1].

Miqrasiya edən şəxslər **miqrant** adlanır. Adətən miqrasiya - emiqrasiya və immiqrasiyaya bölünür:

- **Emiqrasiya** - insanların hər hansı səbəbdən yerləşmək məqsədi ilə bir dövlətdən başqa bir dövlətə köçməsi deməkdir.[2] (Məsələn, Azərbaycan Respublikasının vətəndaşı Almaniyaya işləmək və yaşamaq üçün köçür.)
- **İmmiqrasiya** Başqa ölkə vətəndaşlarının hər hansı səbəbdən müvafiq ölkəyə yerləşmək üçün gəlməsi deməkdir.[3] (Məsələn, Türkiyə vətəndaşı Azərbaycan Respublikasına yaşamaq və işləmək üçün köçür.)

**Miqrantların gəlmə-getmə səbəbləri**

Miqrasiya prosesləri hər zaman konkret faktlar, səbəblər, hadisələrlə müşayiət olunur. Miqrantların ölkədən getmə (tərk etmə) və digər ölkələrə maraq göstərmə səbəblərinə fikir verilməlidir. Bu səbəblər insanları emiqrasiya edərək, konkret ölkələrə üz tutmağa sövq edir.

**İnsanların miqrasiya etmə səbəbləri:**

- iqtisadi (iş yerlərinin az olması, əməkhaqqının az olması)
- siyasi (siyasi səbəblərə görə təqib olunma, korrupsiya, dövlət çevrilişi, ölkədə avtoritar rejimin olması)
- sosial (sosial və tibbi xidmətlərin aşağı səviyyədə olması)
- şəxsi/ailə problemləri
- təbii fəlakətlər və s.



Rəsmi statistikaya görə, ölkəmizin əhalisinin 30%-ni gənclər təşkil edir. Xaricə gedən vətəndaşlarımızın 70%-dən çoxunu gənclər təşkil edir. 9.000.000-dan artıq əhalisi olan ölkəmizin 2.000.000-a yaxın vətəndaşı miqrant olaraq Rusiya Federasiyasını seçmişdir. Təkcə 2008-ci il ərzində 542000 vətəndaşımız Rusiyaya iş tapmaq məqsədi ilə miqrasiya etmişdir.[4]

Qeyri-rəsmi mənbələrin məlumatına görə, Ukraynada 500.000-ə yaxın, Türkiyədə 100.000, Qərbi Avropa ölkələrində 90.000-ə yaxın soydaşımız yaşayır.

[1] No 2 - Глоссарий терминов в области миграции, Международная организация по миграции (МОМ), Женева 2005

[2] No 2 - Глоссарий терминов в области миграции, Международная организация по миграции (МОМ), Женева 2005

[3] No 2 - Глоссарий терминов в области миграции, Международная организация по миграции (МОМ), Женева 2005

[4] Dövlət Statisika Komitəsinin 2008-ci il üzrə rəsmi məlumatı, Bakı 2009

Statistikadan da görünür ki, başqa ölkələrə getmək arzusu və istəyi hər zaman var. Miqrasiyanın iqtisadi və sosial səbəbləri şəxsin yeni iş yeri axtarışı, həyat tərzinin dəyişməsi və sosial status əldə etməsindən irəli gəlir.

İqtisadi miqrasiyanın ən əsası müxtəlif növlü formalarından biri hesab edilən ***əmək miqrasiyası*** geniş yayılmaqdadır.

***Əmək miqrasiyası*** - işə düzəlmək məqsədi ilə şəxslərin öz doğma ölkələrindən başqa ölkələrə yerdəyişmələri deməkdir.[3] Xarici ölkədə işləmək üçün dövlətlərarası sazişlər olmalıdır. İşə dəvət edən şirkət tərəfindən rəsmi olaraq müqavilə imzalanmalı, xarici ölkədə işlədiyi müddətdə sosial sığortalara təminat verilməlidir.



## Samirin hadisəsi

Samir Tibb Universitetini bitirdikdən sonra 2 il idi ki, Hərbi Xəstəxanada həkim işləyirdi. Xəstəxanada çalışan həkim həmkarlarından birinin Misirdə işləmək üçün həkim heyətinin qeydiyyata alınması haqqında etdiyi söhbət onun diqqətini cəlb etdi.

Xarici ölkədə işləmək, təcrübəsini artırmaq gənc mütəxəssis kimi Samiri hər zaman maraqlandırdığından həkim həmkarından bu haqda haradan məlumat əldə edə biləcəyini soruşdu.

Samir ilk olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət etdi və Misir Respublikasının işlə təmin edən şirkətlərindən birinin rəsmi lisenziyası olduğunu və Nazirlikdə qeydiyyatdan keçdiyini öyrəndi. Misir Respublikasının Azərbaycandakı nümayəndəsi ilə görüşərək Misirdə işləmək arzusunda olduğunu və iş təklif edən şirkətin bu istiqamətdə gördüyü işlər haqda məlumat almaq istədiyini bildirdi. Nümayəndəliyin əməkdaşları qısa bir müddət ərzində Samiri maraqlandıran məlumatları və şirkətin rəsmi fəaliyyətini təsdiq edən sənədin surətini təqdim etdilər. Samir Misirdə iş təklif edən şirkətin şərtləri ilə tanış olduqdan sonra həmin şirkətlə 2 illik müddətə müqavilə imzaladı. Müqavilənin şərtlərinə görə Samir Misirdə çalışdığı müddətdə 2 illik müvəqqəti yaşayış vizası ilə, tibbi sığorta ilə, şirkət hesabına yaşayış yeri ilə, həftədə 5 gün olmaqla gün ərzində 8 saatlıq iş rejimi ilə təmin edilir, aylıq əməkhaqqı bank hesabına köçürülməklə və ildə bir dəfə məzuniyyət günləri ilə təmin olunurdu.

Samir müqaviləni imzalayır və həkim mütəxəssis kimi Misir Respublikasına işləməyə gedir.

Samir artıq ikinci ildir ki, Misirdədir və şirkətlə imzalanan müqavilənin şərtlərinə əsasən həkim mütəxəssis kimi çalışır. O, xarici ölkədə işləməyindən çox razıdır.

---

[3] № 2 - Глоссарий терминов в области миграции, Международная организация по миграции (МОМ), Женева 2005



Azərbaycan Respublikasında rəsmi qaydada çox az sayda insan işləmək üçün xarici ölkəyə miqrasiya edir.

Turist vizası ilə xarici ölkəyə gedib ancaq viza müddəti bitənədək həmin ölkə ərazisində qalmaq olar. Turist vizası ilə işə düzəlmək olmaz. Bu bütün ölkələrin qanunlarına ziddir. Viza müddəti xarici ölkələrdə müxtəlifdir. Turist vizasının müddəti bitdikdən sonra əgər şəxs ölkəni tərk etmirsə, o, artıq qanunsuz miqranta çevrilir! Hüquq mühafizə orqanları və ya miqrasiya xidməti tərəfindən qanunsuz miqrant aşkarlandıqda inzibati məsuliyyətə, bəzi ölkələrdə isə cinayət məsuliyyətinə cəlb olunur və geriyə - ölkəsinə deportasiya edilir.

**Vüqarın hadisəsi**

Vüqar hərbi xidmətini bitirdikdən sonra iş axtarmaq üçün Bakıya gəlir. Dostlarından biri: "Mən Almaniyaya işləməyə gedirəm. Orada dostlarım mənə yaxşı iş yeri tapacaqlar. İstəyirsənsə pul tap, viza alaq və sən də mənimlə gedək" deyir.

Vüqar dostunun sözünə inanaraq viza xərcləri və təyyarə biletinin alınması üçün borc pul tapır. Turizm şirkətinin vasitəsi ilə 1 həftəlik turist vizası ilə Almaniyaya gedir. 1 həftə ərzində dostu ilə Almaniyanın müxtəlif şəhərlərini gəzdikdən sonra burda qalmaq qərarına gəlir. Amma Vüqar bilmirdi ki, viza müddəti bitdikdən sonra o, artıq qanunsuz miqrant hesab olunur.

Vüqar 1 ay idi ki, Almaniyada idi. İşləmək istəyirdi. Lakin nə dil bilir, nə də rəsmi yaşayış icazəsi vardı. Pulu qurtarmış, dostu ilə əlaqəsini itirmişdi. Parkda yatır, yemək qırıntıları ilə dolanırdı. Düşündükcə bu hala düşməsinin səbəbini məlumatsız olduğunda görürdü.

Polis tərəfindən saxlanıldıqdan sonra, viza müddəti bitdiyinə görə Vüqar ölkədən deportasiya olundu.



## Qanunsuz miqrantın cinayətkarlar tərəfindən insan alveri qurbanına çevrilmə ehtimalı daha böyükdür.

Azərbaycan Respublikasının MDB ölkələrinin bir çoxu ilə və Türkiyə Respublikası ilə gediş-gəliş qaydaları sərbəstdir. Hər bir ölkədə ölkəmizin səfirlik və konsulluqları fəaliyyət

göstərir. Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlik və ya konsulluqlarında qeydiyyatdan keçmək lazımdır. Xarici ölkəyə getdikdə həmin ölkənin dilini bilmək və miqrantlar haqqında qanunu ilə tanış olmaq vacibdir.

## Əgər Sənə xarici ölkədə turist vizası ilə iş təklif edilirsə, inanma! Şəxsiyyətini təsdiq edən sənədləri iş təklif edən, tanımadığın şirkətlərin əməkdaşlarına etibar etmə!



Bu gün dünyada yüz minlərlə insan sənədsiz miqrant kimi yaşayır. Bu kateqoriyadan olan miqrantlar daha acınacaqlı və müdafiəsiz həyat sürənlərdir. Çünki bəzən insan hüquq və azadlıqlarının mükəmməl qorunduğu ölkələrdə də sənədsiz miqrantlarla hətta adi insan kimi də rəftar olunmur. Sənədsiz yaşayan miqrantlarla dünyanın bütün inkişaf etmiş və ya inkişaf etməkdə olan ölkələrində rastlaşmaq mümkündür. Sənədsiz yaşamaq insanın bütün nemətlərdən məhrum olması ilə bərabər, ibtidai cəmiyyətdəki kimi onun adsız, soyadsız, vətənsiz, işsiz, təminatsız, müdafiəsiz və s. olması deməkdir. Belə insanlar daim qorxu və həyəcan içərisində yaşayır, hər vaxt saxlanılmaq və ya ölkədən çıxarılmaqla şantaj olunur və nəticədə uzun müddət istismar olunaraq, insan alveri qurbanına çevrilir.

Beynəlxalq Miqrasiya Təşkilatının verdiyi məlumata əsasən dünyada miqrantların sayı 200 milyondan artıqdır[4]. Miqrantların 60 faizi inkişaf etməkdə olan ölkələrdə, 40 faizi isə inkişaf etmiş ölkələrdə məskunlaşıb. Avropada 60 milyona, Asiyada 51 milyona, Şimali Amerikada 41 milyona yaxın miqrant yaşayır. İnkişaf etmiş ölkələrdə hər 9 nəfərdən biri, inkişaf etməkdə olan ölkələrdə isə hər 67 nəfərdən biri miqrantdır. Tədqiqatlar göstərir ki, miqrantlar öz hüquqları və miqrasiya prosesləri barədə (hara gedirlər, hansı işlə məşğul olacaqlar) məlumat almırlar, buna görə də onlar vətəndə qalan adamlara nisbətən daha çox insan alveri riski qarşısında qalırlar. Düşünə bilərsən: "Bu mənə aid deyil!"



Dünyanın bir çox ölkələrində hər gün minlərlə insan miqrasiya edir və bir çoxları da ehtiyatsızlıq və məlumatsızlıq səbəbindən insan alverçilərinin toruna düşürlər. Bu tora Sənin düşməməyin üçün ehtiyatlı və məlumatlı olmağın vacibdir.

---

[4]Beynəlxalq Miqrasiya Təşkilatı "Ümumdünya Miqrasiya Hesabatı 2008"

## Sənə xaricdə işə düzəlməyi və ideal həyat şəraiti yaratmağı vəd edəndə, yaxşı düşün!

Bu cür təkliflər əksər hallarda insanların istismarı, alçaldılması və hətta ölümü ilə sona çatır. Mütəşəkkil cinayət formalarından biri kimi, insan alveri öz miqyasına görə narkotik və silah ticarətinə bərabər tutulur. Xaricə getmiş adamları vəd edilmiş iş əvəzinə əksər hallarda əməkhaqqı vermədən əyləncə sektorunda, həmçinin kənd təsərrüfatı və sənaye işlərində çalışmağa məcbur edirlər. İnsan alveri ilə məşgul olan cinayətkarlar, əsasən, 19 yaşından 55 yaşınadək kişilərin əməyini istismar edirlər. Ölkə vətəndaşları olan kişilər bəzən mövsümi xarakterli işlərlə bağlı ölkəni qısa müddətə tərk edirlər. Başqasının əməyinin istismarı bahasına gəlir əldə etmək istəyən cinayətkarlar, belə insanların etibarından sui-istifadə edərək onları toplayıb xarici ölkələrə aparır və qul vəziyyətinə salırlar. Belə insanlar uzun müddət kölə vəziyyətində çalışdıqdan sonra, xəstə yarımcan halda ölkəyə, öz ailələrinin yanına qayıdır. Bəzən belə kişilər özlərini günahkar saydıqları üçün ailələrinin yanına dönməkdən də çəkinirlər.

### Fərhadın hadisəsi

Fərhad uzun müddət idi ki, işsiz idi. Qaçqın düşdükləri zamandan illər keçsə də, hələ özünə şərait düzəldə bilməmişdi. Müxtəlif inşaatlarda fəhlə kimi işləyir, iş olmadıqda fərdi iş axtaran fəhlələrin toplaşdığı yerə gəlib günlərlə müştəri gözləyirdi.

Müştəri axtardığı günlərin birində həmyerlisi Eldarla qarşılaşır. Eldar Rusiyada böyük bir tikinti şirkətinin mütəxəssisi olduğunu bildirir. Yüksək maaşlı iş istəyirsə, onunla getməyi təklif edir. Fərhadın "Nəyə görə yerli sakinləri işə cəlb etmirsən" sualına, "Qazancı özümünkülərə versəm, daha yaxşı olar, bir də ki, bizdə başqa millətlərin də nümayəndələri işləyir" cavabını verir.



Fərhad Eldarın təklifi barədə çox fikirləşdikdən sonra razılaşır. Eldarın təklifinin şərtləri çox yaxşı idi. Xarici pasportun alınması və yol xərclərini Eldar ödəyəcək, hər ay maaşından cüzi məbləğ olan 20 ABŞ dolları tutulacaq, əməkhaqqı isə ayda 1500-2000 ABŞ dolları olacaq.

Eldar və Fərhad daha bir neçə fəhləni Rusiyaya aparırlar. Eldar onları bir mənzilə yerləşdirib, uzun müddətli viza açmaq adı ilə pasportlarını alır.

Bundan sonra Fərhad və digər fəhlələr Eldarı bir daha görmürlər. Onları sutkanın 18 saatını işlədir, müqabilində az miqdarda yemək verirlər. Bir otaqda 10 nəfər yaşayır. Etirazlarını bildirənlər isə gözətçilər tərəfindən döyülür, işgəncələrə məruz qalır.

Fərhad və digər fəhlələr Rusiyanın hüquq-mühafizə orqanlarının keçirdiyi əməliyyat nəticəsində vətənə qayıda bilirlər. Eldar adlı şəxs məsuliyyətə cəlb olunur.

Fərhad aldadıldığına görə çox utanır. Başına gələnlərlə bağlı danışmaq istəmir.

Fərhad artıq heç kimə inanmır.

Təcrübə göstərir ki, özəl məşğulluq mərkəzlərinin əksəriyyəti insanları aldatmaqla böyük gəlir əldə etmək istəyindədir. Daha doğrusu, fəaliyyətlərini bu istiqamətdə qurub müxtəlif üsullarla həyata keçirirlər. Nəticədə insanların əməyi istismar olunur, onlar məcburi əməyə cəlb edilir və insan alverinin qurbanına çevrilirlər. Belə hallar daha çox qadınlara qarşı baş verir ki, bu problem cəmiyyəti narahat etməkdədir. Xüsusi metodlarla işlərini quran özəl məşğulluq mərkəzlərinin fəaliyyəti nəticəsində belə faktlara tez-tez rast gəlinir. Məlumata görə, bir sıra özəl məşğulluq xidmətləri böyük miqdarda gəlir əldə etmək məqsədilə insanların məcburi əmək və insan alverinə cəlb olunması kimi cinayətlərə əl atırlar. Öz fəaliyyətlərini ictimaiyyət arasında reklam və elanların verilməsi ilə təşkil edən belə qurumlar yüksək səviyyəli məlumat və elan materialları hazırlayır, mövcud xidmətlər barədə geniş məlumatlar yayırlar. Eyni zamanda, şəxsi əlaqə və şəbəkələrin yaradılmasına böyük önəm verilir. Qəzetlərdə verilən elanlar isə insanların "torа salınması"nda xüsusi rol oynayır. İş axtaranlarla əlaqə qurmaq üçün öz adamlarından istifadə özəl məşğulluq xidmətləri üçün sınanılmış metod hesab olunur. Belə ki, həmin şəxslər adətən əhalinin geniş toplandığı, məsələn, kinoteatr kimi ictimai yerlərdə şirkətin xidmətini reklam edir. Lakin heç bir halda fəaliyyəti barədə rəsmi məlumat təqdim etmir.

Vətəndaşlarla digər əlaqə qurmaq metodu internetdir ki, hazırda bu metoddan geniş istifadə edilir. Özəl məşğulluq xidmətləri adətən internet və qəzetlərdə belə mövzulu elanlar yerləşdirir:

**"Qadın və qızların nəzərinə! Əgər siz yüksək əməkhaqqı və digər şərtlərlə iş və ya evlilik istəyirsinizsə, bizimlə əlaqə saxlayın", "Birləşmiş Ərəb Əmirliyində ofis işində işləmək üçün gənc qızlar tələb olunur".**

Belə üsullarla əlaqə quran özəl məşğulluq xidmətləri daha çox qadınlarla işləməyə üstünlük verirlər. Onları xarici ölkələrdə yüksək əməkhaqqı və iş şəraiti vəd edərək insan alverinin qurbanına çevirirlər. Əsasən ofis işi, menecer, referent və otel xidmətləri, dayə kimi işlər təklif edilən qadınlar aldadılaraq müxtəlif üsullarla xarici ölkələrə göndərilir. Özəl məşğulluq xidmətləri xarici ölkələrdə tikinti şirkətlərində işləmək adı altında 20-40 yaş arasında kişiləri də öz məqsədlərinin qurbanına çevirirlər.

Yeri gəlmişkən qeyd edək ki, özəl məşğulluq xidmətləri lisenziyasız fəaliyyət növünə aid edilsə də, xarici ölkələrə işçi göndərmək üçün xüsusi lisenziya tələb olunur. Ölkədə fəaliyyət göstərən özəl məşğulluq xidmətlərinin isə əksəriyyətinin belə lisenziyası yoxdur. Vasitəçilik missiyasını yerinə yetirməli olan belə qurumlar, əslində insan alverinə şərait yaratmış olurlar. Xaricə göndərilən kişilər məcburi əməyə, qadınlar isə məcburi qaydada cinsi istismara məruz qalırlar. Bundan yaxa qurtarmaq isə heç də asan başa gəlmir. Çünki həmin insanlarla qanunvericilikdə nəzərdə tutulmuş qaydada əmək müqaviləsi bağlanmır, əksər hallarda isə onların sənədləri əllərindən alınır. Belə halda insan alverinin qurbanı heç bir hüquqi yardım almaq və ya fərdi qaydada qaçıb canını qurtarmaq iqtidarında olmur.



### Özəl şirkətlərdən birinin vasitəsi ilə insan alverinin qurbanı olmuş Nailənin dediklərindən

Nailə deyir ki, Bakı şəhərindəki keçidlərin birində ona özəl şirkətin vizit kartını vermişdilər. Göstərilən ünvana getdikdə onun ilkin olaraq ingilis dilini bilib-bilməməsi ilə maraqlanıblar. Onun ingilis dilini öyrənmək istəyini gördükdə müxtəlif işlər təklif ediblər: "Orada mənə bir neçə iş təklif etdilər. Bunlar aşpaz köməkçisi, qocalara baxan və kafedə qabyuyan kimi işlərdən ibarət idi. Ofis işi istədikdə isə mənə kifayət qədər təhsilimin olmadığını bildirdilər. Orada çalışan qadın işçilərdən biri mənə Türkiyədə yüksək əməkhaqqı olan iş təklif etdi". Guya o, Türkiyədə yaşlı adamlara qulluq etməli idi. "Onlar mənə xarici pasport düzəltdilər. Bildirdilər ki, qulluq edəcəyim şəxsin həyat yoldaşı yoxdur və o, mənimlə evlənə də bilər. Reallıqda isə hər şey əksinə oldu. Türkiyədə 7 ay kafedə qabyuyan işlədim, sonra isə müştərilərə cinsi xidmətlər göstərməyə məcbur edildim. Bir müddətdən sonra polis tərəfindən aşkarlanaraq Azərbaycana göndərildim. Məlum oldu ki, həmin agentlik qadınları cinsi istismar məqsədilə xarici ölkələrə göndərirmiş."

Oxuduqca düşünürsən ki, insan alveri nədir?

## İNSAN ALVERİ - İNSAN HAQLARININ POZULMASI VƏ ŞƏXSİYYƏTƏ QARŞI CİNAYƏTDİR.

İnsan alveri və ya trafiking (ingilis dilində - trafficking in human beings) bu, köləliyin müasir forması olaraq, qəddar və laqeyd münasibətlərlə, insan hüquqlarının pozulması ilə müşayiət olunur. Nəticədə insan manipulyasiya obyektinə çevrilir və onunla şəxsi əşya kimi davranılır.



**Birləşmiş Millətlər Təşkilatının Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasını tamamlayan, insan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında Palermo Protokolundan çıxarış**

- «insan alveri» dedikdə, güc tətbiq etmək hədəsi ilə və ya güc tətbiq etməklə və ya məcburetmə, oğurlama, dələduzluq, aldatma, hakimiyyətdən və ya vəziyyətin zəifliyindən sui-istifadə etməklə, yaxud da digər şəxsə nəzarət edən şəxsin razılığını almaq üçün ödəniş və ya mənfəət şəklində rüşvət verməklə insanların istismar məqsədi ilə cəlb edilməsi, daşınması, təhvil verilməsi, gizlədilməsi və ya alınması başa düşülür. İstismar ən azı digər şəxslərin fahişəliyinin istismarını və ya cinsi istismarın digər formalarını, icbari əməyi və ya xidmətləri, köləliyi, köləliyə bənzər adətləri, asılılıq vəziyyətini və ya orqanların çıxarılmasını nəzərdə tutur.

**İnsan alverinin əlamətləri**

Başqa şəxs üçün maddi baxımdan sərfəli olan fəaliyyət insan alverinin əlamətidir:

- İnsan alveri - insan hüquqlarının kobud pozulması halıdır;
- İnsan alveri insan üzərində fiziki, psixi zorakılıq və ya hədələr tətbiq etmədir;
- İnsan alveri - uzunmüddətli əsarətə cəlb etmədir,
- İnsan alveri - insanın istismarıdır;
- İnsan alveri - sərbəst hərəkətə məhdudiyyətin qoyulmasıdır;
- İnsan alveri - yalan və inamdan sui-istifadədir;
- İnsan alveri - şəxsə işgəncə vermək, qəddar, qeyri-insani və ya onun ləyaqətini alçaldan hərəkətlərə yol verməkdir;
- İnsan alveri - şəxsdən, onun şəxsiyyətini təsdiq edən sənədlərin əlindən alınıb saxlanılmasıdır;
- İnsan alveri - şəxsin şikəst olması və ya həyatı ilə vidalaşmasıdır.

**Beynəlxalq qanunvericiliyə əsasən sadalanan formaların hər hansı birindən istifadə şəxsin istisman və ya insan alveri kimi qiymətləndirilə bilər.**

**Əziz dost!**

Sənə və sənin timsalında yaşıdlarına daha aydın olmaq üçün insan alverinin bir sıra formalarını hadisələrlə diqqətinə çatdırırıq:

**Kamilənin hadisəsi**

Rayonlardan birində ali tibbi təhsili ilə çalışan, amma ailəsinə yardım üçün Türkiyədə iş təklifi qəbul edən Kamilə bu təklifi edən Sevdadan heç şübhələnməyib. Məhəllədə hamının nəzərini bahalı geyimləri, zinət əşyaları ilə cəlb etsə də, heç kəs onun nə işlə məşğul olduğunu bilməyib. 22 yaşlı gənc Kamilənin dediyinə görə, Sevda ona vəziyyətdən çıxış yolu kimi Türkiyədə əczaçılıqla məşğul olmağı və boş vaxtlarında əlavə gəlir əldə etmək üçün toxuculuq sənayesində işləməyi məsləhət görüb. Ardından Bakıda və rayonda ev, maşın kimi təkliflər gəlib. Beləcə də heç nədən şübhələnməyən Kamilə Türkiyəyə getmək təklifini qəbul edib və dönüşü çox çətin olan bir yola baş vurub: "Məni satan qadını çoxdan tanıyırdım, onunla, demək

olar ki, rəfiqə idik. Mənə pislik edəcəyinə heç inanmırdım, desəydilər də onun nə işlə məşğul olduğuna inanmazdım. Pis ad çıxarmış qadınlardan fərqli olaraq, onun adı heç kimlə çəkilməzdi, normal həyatı vardı, bahalı geyinərdi, amma onu heç vaxt açıq-saçıq geyimdə görməzdik. Rayonda az-az olardı, hamı onun Bakıda işlədiyini deyirdi. Dilindən "qızım", "bacım", "balam" sözləri əskik olmazdı, Türkiyəyə gedib otelə yerləşənə qədər belə oldu. O vaxtdan sifəti dəyişdi, mədəni qadından əsər-əlamət qalmadı, ifritəyə çevrildi. Mənimlə bərabər daha iki qız aparmışdı və hamıya uca səslə qışqırdı ki, bura işləməyə yox, qul olmağa gətirilmişik. Mənə rayonda illərlə "bacım, bacım" deyən bu adam hətta günlərlə məni ac da saxladı... Mən kimə inanım?



Azərbaycanda aparılan araşdırmalara görə, insan alverinin qurbanı olan qadınların əksəriyyəti yaxın tanışları tərəfindən bu işə məcbur edilib. Digər qisim isə insan alverçisi ilə iş yerində, toy və ya yas məclislərində, hətta küçədə, nəqliyyatda, parkda rastlaşdığını bildirib. Bu araşdırmaların nəticələrinə görə, insan alverinin qurbanları arasında yaxın adamları tərəfindən aldadılaraq xaricə aparılanlar üstünlük təşkil edir. İkinci yeri isə ailə qurmaq məqsədilə xarici ölkələrə aparılaraq satılanlar tutur. Beləlləri üçün xaricdə imkanlı ər, yaxşı həyat vəd edilir, bəzən gələcək "bəyin" fotoşəklindən də istifadə olunur. Hətta xarici kinoaktyorların şəklindən yararlanmaq kimi hallar da var.

## Lalənin hadisəsi

Lalə televiziyada göstərilən seriallardan xaricdə ancaq əyləncəli, maraqlı, qayğısız bir həyatın olduğunu görür, xəyallarında ideal əcnəbi "şahzadə" ilə həyat qururdu.

"Şahzadə" tapmaq o qədər də çətin olmadı. Lalənin qonşusu Sürəyya tez-tez xarici ölkəyə gedib-gəlirdi. Qonşular onun həyat tərzi haqqında dedi-qodu etsələr də, Laləni hər zaman Sürəyyanın dəbdəbəli geyimləri, sürdüyü bahalı avtomobil, hər səfərdən qayıtdıqda ona bahalı hədiyyələr bağışlaması diqqətini çox cəlb edir, onun da Sürəyya kimi yaşamağa haqqı olduğunu düşünürdü.

Sürəyya xaricdə çox imkanlı bir biznesmenlə ailə qurduğunu, həyat yoldaşının onun bütün arzularının həyata keçirdiyini dəfələrlə Lalənin diqqətinə çatdırmışdı. Əcnəbi oğlanların ailə qurduqları xanımlara onların bütün arzularını yerinə yetirməyi özlərinə şərəf saydıqlarını bildirirdi. Və günlərin birində bu oğlanlardan birinin Lalənin şəkilini görüb vurulduğunu, onunla ailə qurmaq istəyini ona çatdırdı.

Sürəyya Laləyə çox yaraşıqlı bir oğlanın şəklini göstərib, onun fikrini öyrənir. Lalə belə oğlanı ancaq seriallarda və xəyallarında görmüşdü. Düşünmədən razılığını verir, Sürəyya da öz növbəsində "toy" hazırlığına başlayır.

Laləni nikah bağlamaq məqsədi ilə bilet alıb xarici ölkəyə yola salır. Xarici



ölkəyə gəldikdə onu yaşlı bir şəxs qarşılayır. Özünü Süreyyanın əri kimi təqdim edir və Laləni nikah işləri hazırlananadək gözləmək üçün bir mənzilə gətirir.

Lalənin həyatında şəkildə gördüyü "şahzadə"dən başqa onlarla digər insanlar oldu. Çünki şəkildə gördüyü "şahzadə" həqiqətdə mövcud deyildi, əcnəbi manekenin şəkli idi.

Lalə təsadüf nəticəsində həmin ölkənin insan alverindən zərər çəkənlərə yardım edən qaynar xəttinə müraciət edərək əsarətdən azad olur. Süreyya insan alverçisi kimi həbs olunur və azadlıqdan uzun müddətə məhrum edilir.

Lalə artıq xəyallar qurmur və heç kimə inanmır. Süreyya kimi qonşu, dost və qohumların hər yerdə olduğunu düşünür.

**!**

**Sənə xaricdə işə düzəlməyi və ideal həyat şəraiti yaratmağı vəd edəndə, yaxşı düşün!** Bu cür təkliflər əksər hallarda insanların istismarı, alçaldılması, sağlamlığına zərər yetirilməsi və hətta ölümü ilə sona çatır. Eləcə də bu yolla getmiş adamları vəd edilmiş iş əvəzinə əksər hallarda əmək haqqı vermədən, ev qulluqçusu sifəti ilə, həmçinin kənd təsərrüfatı və sənaye işlərində çalışmağa məcbur edirlər.

## Nargilənin hadisəsi

Nargilə şəhərdə böyümüşdü. Atası içki düşgünü idi. Anası isə kommunal təsərrüfatlarının birində süpürgəçi işləyərək, evi çox çətinliklə idarə edirdi. Nargilə evdə ancaq dava-dalaşın, atası tərəfindən onun və anasının təhqir olunmasının şahidi olurdu. Bu cür həyatdan qurtulmaq, özünə və anasına yaxşı şərait qurmaq istəyirdi. Bu məqsədlə qəzet elanlarında təklif olunan iş yerlərinə zəng edir, yüksək maaşlı iş axtarırdı. Və sonda istədiyi iş elanını tapır. Xarici ölkədə dayəlik iş təklifi Nargiləni çox sevindirir. Dayəlik edəcəyi yaşlı şəxs yataq xəstəsi idi. Yüksək maaş, qalmaq və yemək xərcləri xəstənin ailəsi tərəfindən ödənəcəkdi. Nargilə anası ilə məsləhətləşdikdən sonra sənədlərini iş təklif edən şirkətə etibar edir. Qısa bir zamanda Nargilə yola düşür. Həqiqətən də o, yataq xəstəsinə dayəlik edir. Ancaq onun işi tək bundan ibarət deyildi. O həm də bütün ev işlərini görür, ailə başçısı tərəfindən fiziki zorakılığa məruz qalırdı. Ona sutka ərzində 4 saat yatmağa, az miqdarda yemək yeməyə icazə verilirdi. Yataq otağı olmadığından dəhlizdə döşəmədə yatır, ev sahibləri tərəfindən alçaldılırdı.



Nargilə bütün bu təpkilərə dözməyərək ağır xəstələnir. Ev sahibləri sahibsiz heyvan, lazımsız əşya kimi onu küçəyə atırlar.

Polis tərəfindən tapılıb xəstəxanaya yerləşdirilən Nargilə sağaldıqdan sonra harada, kimin evində işləyib qaldığını belə yadına sala bilmir.

**Unutmayın ki, insan alveri dedikdə, yalnız ölkənin hüdudlarından kənara çıxmaq nəzərdə tutulmur. Öz ölkənizdən, şəhərinizdən, rayonunuzdan və hətta məhəllənizdən kənara çıxmadan da insan alveri baş verə bilər. İnsan alveri zəmanəmizin ən ağır cinayətlərindən biridir. İnsan alverinin qurbanları əsasən qadınlar və uşaqlardır.**

## Qardaşları kim xilas etdi?

Onlar iki qardaşdır. Qadirin 10 və Habilin 9 yaşı var. Anaları ağır xəstəlikdən dünyasını dəyişdikdən sonra uşaqlar bir müddət qonşuların himayəsində qalır. Çünki ataları analarının sağlığında da onlarla heç maraqlanmır, uşaqlara maddi yardım göstərmirdi.

Anaları vəfat etdikdən sonra atası qardaşları Bakıya gətirir. Şəhərdə məhəllələrin birində kirayə ev tutur. Qardaşlar şəhərə gəldikdə düşünürdülər ki, onlar da yaşıdları kimi məktəbə gedəcək, səliqəli paltarlar geyib, doyunca yemək yeyəcəklər. Amma bütün bu arzuların tam əksi oldu.



Narkoistifadəçi olan ata hər gün tezdən gecə yarıyadək Qadir və Habili küçəbəküçə gəzib dilənməyə məcbur edir və onların nə qədər qazandıqlarına kənardan nəzarət edir. Dilənçilik etmək istəmədikdə qardaşlar döyülür, təhqir olunur, ac və ağır şəraitdə saxlanılırdı.

Qardaşların vəziyyətini onları tanıyan küçə uşaqları daima əlaqədə olduqları qeyri-hökumət təşkilatı (QHT) nümayəndələrinə bildirir. Araşdırmalardan sonra uşaqların dediyi faktlar öz təsdiqini tapır.

Qadir və Habil uşaq evinə yerləşdirilmiş, onların valideyni barədə cinayət işi açılmışdır.

## İlqarın hadisəsi

İlqarın hələ 2 yaşı olanda anası vəfat etmişdi. Atası İlqara baxa bilmədiyindən, ev qayğılarından uzaq olmaq üçün yenidən ailə qurmuş, ancaq bu ailənin də birgəyaşayışı uğurlu olmamışdı.

Atası qazanc əldə etmək məqsədi ilə Rusiyaya getdikdən sonra 6 yaşlı İlqarın həyatı cəhənnəm əzabına çevrilir.

Bu balaca oğlanı analığı evin ən ağır təsərrüfat işlərini görməyə məcbur edir, kəndin uşaqları ilə əlaqə qurmağa icazə vermirdi. İlqar bu səbəbdən heç kimə öz dərdini deyə bilmir, atasının yolunu səbirsizliklə gözləyirdi.

İlqar mal-qaranı otarır, ot biçir, biçdiyi otu uzaq məsafədən çiynində gətirir, bulaqdan ağır vedrələrlə həyətə su daşıyırdı. Axşama qədər ağır işlər görən İlqarın son

vaxtlar arıqlaması, uşaqlara qoşulmaması qonşularda şübhə oyadır. Qonşular kəndin icra nümayəndəsinə bu barədə məlumat verir. İcra nümayəndəsi kəndin həkimi ilə İlqargilə gəldikdə ağır bir səhnənin şahidi olurlar.

Evin digər uşaqları və ögey ana rahat yataqda yatdıqları halda, İlqar mətbəxdə sandığın üstündə büzüşüb yatmışdı.

İcra nümayəndəsi rayon icra hakimiyyətinin qəyyumluq komissiyasına və yerli polis idarəsinə İlqarın məcburi əməyə cəlb olunması və ona qarşı haqsızlığa görə müraciət etdi. İlqarın analığı məsuliyyətə cəlb olundu.

**ABŞ Dövlət Departamentinin 2006-cı ildə verdiyi açıqlamaya görə insan alveri qurbanlarının sayı təxminən 600-800 min nəfərdir[7].**

**İnsan alverçilərini tanıyın! Onları ifşa edin!**

**Bu gün bütün dünya insan alverindən, onun qarşısının alınması yollarından danışsa da, hər il alver qurbanlarının sayı artır!**



## İnsan alverinin formaları:

**İnsan alverini aşağıdakı formalara bölmək olar:**

**• cinsi istismar;**

**• əməyin istismarı (insan kölə şəraitində işləməyə məcburdur, əməyi qiymətləndirilmir, sərbəst hərəkətləri məhduddur);**

***qanuni (tikiş istehsalatında, restoran biznesində, ev və kənd təsərrüfatında, dənizdə dənizçilərin istismarı və s.);**

***cinayət tərkibli biznes (qeyri-qanuni istehsalat, qanunsuz məhsulların istehsalı, narkotiklərin daşınması, uşaq əməyi);**

**• istismar məqsədi ilə nikahlar (ev təsərrüfatında istifadə, məcburi hamiləlik və uşaqların doğulması, xəstə və qocalara qulluq etmək məcburiyyəti);**

**• dilənçilik (uşaqlardan, şikəstlərdən və körpələrdən dilənçilik etməklə istifadə);**

**• uşaq alveri (qeyri-qanuni övladlığa götürmə);**

---

[7] ABŞ Dövlət Departamenti "İnsan alverinə qarşı İllik Hesabat 2006-cı il"

**İnsan Alverinə qarşı Mübarizə Haqqında Azərbaycan Respublikasının QANUNU (maddə 1) (28 iyun 2005-ci il № 958 IIQ)**

1.0.1. insan alveri zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə, hədə-qorxu və ya digər məcburetmə vasitələri ilə, oğurlama, dələduzluq, aldatma yolu ilə, təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etməklə, yaxud digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər verməklə və ya almaqla insanların istismar məqsədi ilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi (uşağın istismar məqsədi ilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi bu maddədə göstərilən üsullardan istifadə olunmasa da insan alveri hesab edilir);

1.0.2. insanların istismarı məcburi əmək (xidmət), cinsi istismar, köləlik, köləliyə bənzər adətlər və onlardan irəli gələn asılılıq vəziyyəti, insan orqanlarının və toxumalarının qanunsuz çıxarılması, şəxs üzərində qanunsuz biotibbi tədqiqatların aparılması, qadının surroqat ana kimi istifadə edilməsi, qanunsuz, o cümlədən cinayətkar fəaliyyətə cəlb etmə, habelə insanların digər formada istismar edilməsi (insan alveri 1.0.1-ci maddədə göstərilən üsullarla törədildikdə, insan alveri qurbanının istismar olunmasına dair razılığı nəzərə alınmır);

1.0.3. məcburi əmək (xidmət) qanunsuz olaraq şəxsin müəyyən işin yerinə yetirilməsinə (xidmətin göstərilməsinə) məcbur edilməsi;

1.0.4. cinsi istismar şəxsin fahişəlikdə, seksual köləlikdə və ya pornoqrafik materialların istehsalında istifadə edilməsi, digər şəxslərin cinsi istismarından mənfəət əldə edilməsi;

1.0.5. köləlik şəxs üzərində mülkiyyət hüququna xas olan səlahiyyətlərin tam və ya qismən həyata keçirilməsi;

**İnsan alverçiləri qurbanlara qarşı özünəməxsus nəzarət qaydalarından istifadə edir:**

- döymə, zorlama, işgəncə;
- təcrid etmə, ac saxlama;
- ölümlə hədələmə/sağlamlığa ciddi zərərvermə;
- psixoloji zorakılıq;
- narkotik və spirtli içkilərdən asılılıq;
- sənədləri müsadirə etmə;
- borclu etmə;
- deportasiya ilə hədələmə;
- qurbanın ailəsinə və ya vətənindəki dostuna qarşı təhdidlər.

**İnsan alverçiləri insanları tora salmaq üçün bu vasitələrdən istifadə edirlər:**

- gözəl həyat haqqında əhvalat danışılır;
- bütün maliyyə problemlərinə son qoyulması ilə bağlı vədlər verilir;
- yüksək həcmli əməkhaqqı ilə bağlı təkliflər edilir;
- karyera pilləsində yüksəlmə vədləri verilir;
- hazırlanmış adamların "əldə etdikləri nailiyyətlər" barədə məlumatlar verilir;
- foto və videomateriallar nümayiş etdirilir;
- təqdimatlar edilir.

**Belə təkliflərlə rastlaşdıqda diqqətli ol!**

**Bu təkliflər etibar etdiyin, yaxın bildiyin dostlar, dostların tanışları, qohumlar tərəfindən də edilə bilər!**

**İnsan alverçilərinin toruna düşməmək üçün ehtiyatlı ol!**

## Nazilənin hadisəsi

Nazilə ucqar kənd sakinidir. 30 yaşına çatsa da, nə ailə qura bilib, nə də bir iş sahibi olub. Kəndin bir çox qadınları rayon mərkəzindən topdansatış malları alıb kənddə bir az bahasına satıb, çörək pulu əldə edirdi.

Nazilə də rayondan tanıdığı Sənubər adlı qadından faizlə pul götürüb alver etməyə başladı.

Alveri yaxşı gedən Nazilə Bakıdan mal gətirib rayonda satmaq həvəsinə düşür. Bakıya gedib mal gətirmək isə çox pul tələb edirdi. Nazilə əvvəllər də faizlə pul götürdüyü Sənubərdən 2.000 manat alır.

Nazilə gətirdiyi malları vaxtında sata bilmədiyindən borc pulun faizi hər ay artır. Bir ildən sonra Nazilənin Sənubərə olan borcu 8.000 manat təşkil edir.

Sənubər pulunu tələb etdikdə Nazilə evini də satsa, bu pulu verə bilməyəcəyini bildirir. O zaman Sənubər Naziləyə böyrəyini satmağı təklif edir. Bildirir ki, böyrəyini 30.000 manata satmaq olar. Və tez bir zamanda Nazilənin böyrəyinə müştəri tapmağa da köməklik göstərəcəyinə söz verir.

Nazilə razılaşdıqdan dərhal sonra Sənubər tanış həkim vasitəsi ilə sağlam böyrəyə ehtiyacı olan xəstə də tapır. Az bir müddət ərzində xarici pasport düzəldərək Nazilə xəstə ilə xarici ölkəyə göndərilir, böyrək nəqli əməliyyatı həyata keçirilir. Sənubər Naziləyə böyrək satışından əldə etdiyi puldan heç nə vermir. Nazilənin ona olan 8.000 manat borcunu böyrəyi ilə əvəz edir.



Nazilə borc asılılığından istifadə edərək onu böyrəyini satmağa məcbur edən Sənubərin oyununun qurbanı olur.

Bu hadisədən xəbər tutan hüquq-mühafizə orqanları Sənubəri cinayət məsuliyyətinə cəlb edir.

**Bir çox hallarda insanlar bu vasitələrlə də aldadılır :**

- əvvəlcədən hazırlanmış adamlar tərəfindən təkliflərlə;
- tanışlar, qonşular, kurs yoldaşları, iş yerindəki həmkarlar tərəfindən təkliflərlə;
- xarici agentliklər tərəfindən təkliflərlə;
- işədüzəltmə firmaları vasitəsilə;
- moda agentliyi vasitəsilə;
- nikah agentliyi vasitəsilə;
- turizm agentliyi vasitəsilə;
- qəzet, küçə və televiziya elanları vasitəsilə;
- internet vasitəsilə iş, təhsil, tanışlıq və nikah haqqında elanlar vasitəsilə.

Son zamanlar yeniyetmə və gənclərin xarici ölkələrin kollec və universitetlərində təhsil almaq marağı artmaqdadır. Əlbəttə, bu gözəl bir arzudur. Sadəcə belə təhsil müəssisələri haqda kifayət qədər məlumat əldə etmək lazımdır ki, insan alverçilərinin toruna düşməyəsən.

**İnternetdə yerləşdirilən təhsil müəssisələrinin heç də hamısı mövcud deyil!**

## Sevdanın başına gələnlər

Sevda dostları və yaxınları arasında çox ağıllı və bacarıqlı qız kimi tanınırdı. Xarici ölkədə universitetdə təhsil almaq onun ən böyük arzusu idi. Bu məqsədlə saatlarla kompyuterin qarşısında oturub, internetdə təhsil almaqla bağlı elanları izləyir, ünvanlara özü barədə, oxumaq istədiyi ixtisas barədə məktublar göndərirdi.

Günlərin birində tanınmamış universitetlərin birindən çox maraqlı təklif alır. İstədiyi ixtisas üzrə fakültədə təhsil almağa dəvət olunur. 4 il təhsil alacağı universitetin gözəl yataqxanası, pulsuz yemək, hətta hər ay yüksək məbləğdə tələbə təqaüdü var. Sevincini dost və tanışları ilə bölüşmək istədikdə, onlar universitet haqqında heç vaxt eşitmədiklərindən ehtiyatlı olmağı, daha ətraflı məlumat almağı məsləhət gördülər. Sevda dostlarının bu narahatlığını paxıllıq kimi qiymətləndirdi.

Tez bir zamanda təhsil almaq üçün xarici ölkəyə yola düşən Sevdanın arzuları puç oldu. Onu qarşılayan şəxs yataqxananın təmirdə olması səbəbindən tələbə qızların müvəqqəti olaraq universitet tərəfindən kirayə tutduğu evdə qalacağını bildirir və Sevdanın sənədlərini universitetdə qeydiyyata salmaq adı ilə alır. Sevda tələbəlik həyatı əvəzinə çox dəhşətli həyatla üzləşir.



Sevda günlərlə cinsi istismara, müqavimət göstərdikdə fiziki zorakılığa məruz qalır. Təsadüf nəticəsində Sevda əsarətdən qurtula bilir. Səfirlik və beynəlxalq təşkilatlardan birinin köməkliyi ilə geriyə, vətənə qayıdır. Uzun müddət psixoloq və həkimlərin nəzarəti altında müalicə alır.

Ali təhsil almaq arzusunu öz ölkəsində reallaşdırmaq üçün bütün vaxtını dərs hazırlığına sərf edir.

Sevda elanların əksəriyyətinin yalan olduğunu düşünür. Həmyaşıdlarının aldadılmaması məqsədi ilə insan alverinin qarşısının alınması sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının maarifləndirmə proqramlarında işləyir.

## Xaricə getmək istəyənlər üçün
## TƏHLÜKƏSİZLİK QAYDALARI

• Müraciət etdiyiniz firmanın sənədləri və iş təcrübəsi ilə yaxından tanış olun.

• Azərbaycan Respublikasında fəaliyyət göstərən hüquqi şəxs Azərbaycan vətəndaşının xarici ölkədə iş tapmasına, yalnız lazımi fəaliyyət lisenziyası olduğu halda yardım edə bilər.

• Əgər Sizə xaricdə iş, təhsil və ya ailə qurmaq üçün təkliflər verilərsə, bu, söz halında həyata keçirilməməli, mütləq hər hansı bir rəsmi müqavilə əsasında yerinə yetirilməlidir.

• Müqavilə mütləq ana dilində olmaqla Sizə aydın olan üslubda yazılmalı və sizin xaricdə görəcəyiniz iş haqqında ətraflı məlumat verməlidir. Müqavilədə mütləq hər iki tərəfin, yəni müraciət etdiyiniz firma və sizin öhdəlikləriniz aydın şəkildə göstərilməlidir (yaxşı olardı ki, müqavilənin şərtləri ilə bağlı hüquqşünasdan məsləhət alasınız).

• Müəyyən firma adından Sizə xarici ölkələrdən birində iş təklif edən nümayəndənin adını, soyadını öyrənin, təmsil etdiyi firmanın onun adına verdiyi vəsiqə, etibarnamə və müqaviləni tələb edin. Belə sənədlər adətən notarius tərəfindən firmanı təmsil edən nümayəndənin adına verilir və orada nümayəndənin məhz xarici ölkələrə işçi toplaması haqqında bənd göstərilir.

•Xaricdə hər hansı bir işədüzəltmə ilə bağlı əmək, təhsil, nikah müqaviləsini bağlamazdan əvvəl bu ölkədə işləməyiniz, təhsil almağınız və ya sadəcə yaşamağınızın leqal və təhlükəsiz olması barədə miqrasiya xidməti əməkdaşı ilə hökmən məsləhətləşin.

## XARİCİ ÖLKƏYƏ GETMƏK İSTƏDİKDƏ:

• Xaricə getməzdən əvvəl, Azərbaycan səfirliklərinin və konsulluqlarının xarici ölkələrdəki telefonlarını öyrənin. Beynəlxalq Miqrasiya Təşkilatının Miqrasiya İnformasiya Mərkəzinə zəng edib ətraflı məlumat alın. Əlaqə telefonları: Bakı şəhərindən (012 4651195), Mingəçevir şəhərindən (0147 42293). Lazımi anda təcili onlara müraciət edin!

• Unutmayın! Yalnız təhsil alma, biznes, turizm, ailə üzvləri ilə birləşmək üçün viza növləri mövcuddur və ölkəni bu viza növləri olmadan tərk etmək qanunaziddir!

• Xarici ölkəyə çatan kimi mütləq Azərbaycan səfirliyi və ya konsulluğunda, yaşadığınız ərazinin polis orqanlarında qeydiyyata düşün!

• Unutmayın! Xarici dövlətdə vizada göstərilən müddətdən artıq yaşamaq ciddi qanun pozuntusu sayılır!

• Yaxından tanımadığınız şəxslərin sizin viza və pasport almağınıza köməklik göstərmələrinə qətiyyən razı olmayın!

• Xarici ölkədə seçdiyiniz otelin imicinə diqqət yetirin. Yüngül əxlaqlı qadınların məskən saldığı otellərdən uzaq olmağa çalışın!

• Hansı ölkədə olmağınızdan asılı olmayaraq, Azərbaycan Respublikasının Konstitusiyası Sizin hüquqlarınızın qarantıdır və pozulmuş hüquqlarınızın bərpa edilməsi üçün lazım olan hər şey Azərbaycan Respublikasının qanunvericilik aktlarında təsbit olunmuşdur.

• Ölkəyə giriş üçün viza almanın qaydalarını öyrənin.

• Yadda saxlayın! Viza nəzarətinin daha da ciddiləşdirilməsinə görə, bir çox xarici ölkələrə viza alanda, həmin şəxsin hökmən iştirakı tələb olunur. Bu ona görə edilir ki, hər hansı vasitəçi və ya firma vasitəsilə sənədlər başqa yerə ötürülə bilməsin.

• Viza alarkən, getdiyiniz ölkənin ərazisində vizanın Sizə verdiyi zəmanət qaydalarına əsasən yerləşmə şəraitini öyrənin.

• Hansı ölkədə Sizə iş, təhsil və ya nikah bağlamaq təklif edilirsə, o ölkədəki səfirliyin əməkdaşları vasitəsilə müqavilənizin həqiqi və leqal olması haqqında məlumat alın.

• Əgər siz xarici ölkəyə işləməyə gedirsinizsə, vizanız qonaq və ya turist vizası deyil, əmək vizası olmalıdır. Əgər Siz xaricə oxumağa gedirsinizsə, viza tələbə vizası olmalıdır.

• Yadda saxlayın! Yalnız əmək vizası ilə işləmək olar. Tələbə vizası ilə işləmək qeyri-qanunidir. Əgər Siz xaricə nikah məqsədi ilə gedirsinizsə, Sizə nişanlı vizası verilir. Həmçinin bu viza ilə qanuni işə düzəlmək qeyri-mümkündür. Xarici dövlətdə işədüzəlmə qaydalarını və bu zaman hansı sənədlərin lazım olacağını öyrənin!

• Heç vaxt dövlət sərhədini qeyri-qanuni və saxta sənədlərlə keçməyə çalışmayın!

● Getdiyiniz ölkənin qanunvericiliyini, həmin ölkədə qadının statusunu, məişət şəraitini, yaşayış səviyyəsini, işsizliyin vəziyyətini, dili və mədəni xüsusiyyətlərini öyrənməyə çalışın!

● Doğmalarınıza və ya dostlarınıza Sizin xaricə getməyiniz haqqında müfəssəl məlumatı, oradakı ünvanı, əlaqə telefonunu və həmçinin pasportunuzun birinci səhifəsini, viza səhifəsinin və müqavilənin surətini verməyi unutmayın!

● Doğmalarınızla telefonla xüsusi nəzarət zəngləri və kodlaşdırılmış ifadələr haqqında razılaşın. Əgər hər hansı bir zəng olmazsa, doğmalarınız şəraitin aydınlaşdırılması üçün hərəkət edəcəklər.

● Bütün sənədlərin surətini çıxarın!

● Şəxsiyyətinizi təsdiq edən sənədləri heç kimə etibar etməyin. Onlar həmişə Sizdə olmalıdır.

● Xaricə getməzdən əvvəl, Azərbaycan səfirliklərinin və konsulluqlarının xarici ölkələrdəki telefonlarını öyrənin. Lazımi anda təcili onlara müraciət edin. Onlar Sizə kömək etməlidirlər. Ağır şəraitə düşən qadınlara yardım edin! Qeyri-hökumət təşkilatları, beynəlxalq təşkilatlar və ictmai xidmətlərin telefonlarını və ünvanlarını aydınlaşdırın.

● Getdiyiniz ölkəyə çatan kimi mütləq Azərbaycan səfirliyi və konsulluğunda, həmçinin yaşadığınız ərazinin polis orqanlarında və ya bələdiyyədə qeydiyyata düşün.

● Yadda saxlayın! Xarici dövlətin ərazisində qalma müddətiniz vizada göstərilmişdir. Viza rejimini pozmaq ciddi qanun pozuntusu sayılır və növbəti dəfə xaricə getməyi qeyri-mümkün edir.

## Xarici ölkədə yüksək ödənişli iş təklif olunur?

● Tələsməyin! Yüz ölçüb bir biçin. Əgər bu cür təklif firmadan gəlibsə, onun xaricdə işədüzəltmə üçün xüsusi icazəsilisenziyasının olub-olmaması ilə maraqlanın.

● Belə hüquqlara malik olan firmaların siyahısı Azərbaycan Respublikası Ədliyyə Nazirliyində vardır.

## Xarici ölkədə təhsil almaq təklif olunur?

Xarici ölkələrdə təhsil almaq arzunuzu reallaşdırmazdan öncə aşağıdakı məlumatları bilməyiniz vacibdir!

- Əgər Sizə xarici ölkədə təhsil almaq təklif olunarsa, bu, söz halında həyata keçirilməməli, mütləq rəsmi müqavilə təqdim edilməlidir;
- Əgər Siz xaricdə təhsil almağa gedirsinizsə, vizanız tələbə vizası olmalıdır;
- Xaricdə təhsil almaq üçün Sizə təqdim edilən müqavilə mütləq Sizin başa düşdüyünüz dildə, yəni ana dilində olmalıdır;
- Təhsil almağa gedəcəyiniz ölkənin nümayəndəliyi Azərbaycanda yerləşirsə, mütləq ora rəsmi müraciət edərək Sizə təklif olunan təhsil müəssisəsi barədə məlumat alın.
- Əgər həmin ölkənin nümayəndəliyi ölkəmizdə fəaliyyət göstərmirsə, onda Azərbaycan Respublikası Təhsil Nazirliyinə müraciət edib, Sizi maraqlandıran məlumatları dəqiqləşdirməyi unutmayın!

## Əgər xarici vətəndaşla ailə həyatı qurmaq təklifi almışsınızsa, aşağıdakı tədbirləri həyata keçirməyiniz vacibdir!

- İnternet vasitəsilə ailə qurmaq təklifi bəzən Sizi köləyə çevirə bilər. Odur ki, hər bir təklifi öncə dəqiqləşdirin.
- Əgər xarici ölkə vətəndaşı ilə ailə qurmaq istəyinizi reallaşdırmaq məqsədi ilə nikah firmalarına müraciət etməli olsanız, öncə həmin firmanın lisenziyasının olmasına diqqət yetirin!
- Ailə qurmaq təklif edilən şəxslə və onun sənədləri ilə tanış olun!
- Ailə qurmaq istədiyiniz xarici vətəndaş barədə, onun vətəndaş olduğu ölkənin nümayəndəliyinə müraciət edərək rəsmi məlumatlanın!
- Unutmayın ki, hər bir xarici ölkə vətəndaşı nikaha girərkən, onun haqqında bütün məlumatları əks etdirən Forma 4 anketini təqdim etməlidir.

## Xarici ölkədə olarkən bunları unutmayın:

• Pasportunuzu başqa şəxsə verməyin. Lazım gəldikdə sənədlərinizin yalnız surətini tələb olunan yerə təqdim edin;

•Xarici ölkədə sənədləriniz itərsə, dərhal həmin ölkənin polisinə, Azərbaycan Respublikasının həmin ölkədəki səfirliyinə və ya konsulluğuna müraciət edin;

•Mütəmadi olaraq qohumlarınız və ailənizlə əlaqə saxlayın. Həyatınızdakı hər hansı dəyişiklik barədə dərhal onlara məlumat verin;

•Sizə kömək lazım olduqda dərhal Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən insan alverinin qarşısının alınması və qurbanlara kömək məqsədi ilə yaradılmış, həftənin bütün günləri 24 saat ərzində ödənişsiz psixoloji və hüquqi xidmət göstərən, dünyanın hər bir ölkəsindən zəngləri qəbul edən 152 "Qaynar xətt" xidmətinə zəng edin. 152 "Qaynar xətt" xidməti:

- insan alverinin və onunla bağlı təhdidlərin qarşısını almaq;
- insan alverindən zərər çəkmiş şəxslərə köməklik göstərmək;
- xarici ölkələrdə işə düzəlmək, təhsil almaq, istirahət etmək, əcnəbi vətəndaşlara ərə getmək üçün müraciət edənlərə lazımi məsləhətlər vermək;
- yaşayış yerindən və sosial statusundan asılı olmayaraq vətəndaşlara telefonla vaxtında və mümkün psixoloji yardım göstərilməsini təmin etmək;
- kömək və məsləhət almaq üçün müraciət etmiş hər bir şəxslə etibarlı dialoqu təmin etmək;
- insan alverindən zərərçəkmiş şəxslərin, ehtimal olunan qurbanların və şahidlərin müvəqqəti yaşaması üçün Daxili İşlər Nazirliyi tərəfindən yaradılmış sığınacağa və onlara köməklik göstərəcək beynəlxalq və yerli qeyri-hökumət təşkilatlarına istiqamətləndirməsi funksiyalarını daşıyır.

• İnsan alverindən zərər çəkmiş şəxslərin, ehtimal olunan qurbanların və şahidlərin müvəqqəti yaşaması üçün Daxili İşlər Nazirliyi tərəfindən yaradılmış sığınacaq:

- insan alveri qurbanlarını, ehtimal olunan qurbanları və şahidləri müdafiə etmək;
- insan alveri qurbanlarına, ehtimal olunan qurbanlara köməklik göstərmək;
- insan alveri qurbanlarının, ehtimal olunan qurbanların lazımi ehtiyaclarını təmin etmək;
- insan alveri qurbanları, ehtimal olunan qurbanlar və şahidlər üçün təhlükəsiz mühit yaratmaq;
- insan alveri qurbanlarını və ehtimal olunan qurbanları qida və dərman preparatları ilə təmin etmək;
- insan alveri qurbanları, ehtimal olunan qurbanlar üçün layiqli həyat və yaşayış şəraitini yaratmaq;
- insan alveri qurbanlarına və ehtimal olunan qurbanlara təxirəsalınmaz tibbi, psixoloji, sosial və hüquqi yardım göstərmək;
- insan alveri qurbanları və ehtimal olunan qurbanlar barədə reabilitasiya və reinteqrasiya tədbirlərinin həyata keçirilməsi üçün əlverişli şəraiti, öz repatriasiyasını gözləyən qurbanlar, habelə sübutlar təqdim edən şahidlər üçün təhlükəsiz mühiti təmin etmək funksiyalarını daşıyır.

# Başqa ölkələrdə kömək üçün kimə müraciət etməli?

Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlikləri və nümayəndəlikləri:

| № | Ölkə | Ünvan | Əlaqə telefonları | İnternet ünvanı |
|---|---|---|---|---|
| 1 | BƏƏ-nin Dubay Əmirlikləri (səfirlik) | Abu-Dabi, Al-Bateen Area Villa Sector W14, Plot [illegible] | +(9712) 644-37-73<br>+(9712) 666-31-50 | azembasy@emirates.net.ae |
| 2 | Türkiyə Respublikası (səfirlik) | Ankara, Diplomatik Site, Baku Sokak 1, Oran | +(90312)491-16-81<br>+(90312)491-16-82<br>+(90312)491-16-83 | azer-tr@tr.net<br>www.azembassy.org.tr |
| 3 | Rusiya Federasiyası (səfirlik) | Moskva, Leontievskiy pereulok 16 | +(735) 229-16-49<br>+(795) 229-43-32<br>+(795) 202-50-72 | azerinaz@cnt.ru<br>www.azembassy.msk.ru |
| 4 | Pakistan İslam Respublikası (səfirlik) | Islamabad, Ataturk Avenue, G-63, Str.87, House 14 | +(9251)282-93-45<br>+(9251) 282-06-98 | azerembi@isb.paknet.com.pk<br>www.azembassy. com.pk |
| 5 | İran İslam Respublikası (səfirlik) | Tehran, Vatanpoor Str, 30 | +(9821)221-23-24<br>+(9821)221-75-04 | azerembi@neda.net<br>www.azembassy.ir |
| 6 | Almaniya (səfirlik) | Berlin, Axel Springer Strasse 54 A, Consular section: Berlin, Kommandanten Str.80 | +49(30)2191613,<br>20648083<br>(consular section) | azerbembgermany@aol.com<br>www.azembassy.de |
| 7 | Amerika Birləşmiş Ştatları (səfirlik-həmçinin Meksika yanında akkredite olunmuşdur) | Washington D.C,2741 34[th] Str. | +1(202)3373500<br>+1(202)3375912 | azerbaijan@azembassy.us<br>www.azembassy.us |
| 8 | Avstriya(səfirlik - həmçinin Slovakiya Respublikası yanında akkredite olunmuşdur) | Hugelgasse 2, A-1130 Vienna | +43(1)4031322 | office@azembvienna.at<br>www.azembvienna.at |
| 9 | Belçika (səfirlik-həmçinin Lüksemburq yanında akkredite olunmuşdur) | Bruxelles, 464, Av.Moliere, 1050 Ixelles | +32 (2)3452660 | office@azembassy.be<br>www.azembassy.be |
| 10 | Çin (səfirlik - həmçinin Monqolustan, Şimali Koreya, Cənubi Koreya və Vyetnam yanında akkredite olunmuşdur) | Beijing, Qijiayuan Diplomatic Compound, Villa B-3 | +86(65)65324614<br>+86(65)65324698 | [illegible]@azerbembassy.org.cn<br>www.azerbembassy.org.cn |
| 11 | Hindistan (səfirlik-həmçinin Nepal Krallığı yanında akkredite olunmuşdur) | New Delhi, Vasant Marg, Vasant Vihar E-70 | +91(11)26152228 | azembassy@touchelindia.net |
| 12 | Kanada (səfirlik) | 275 Slater street, suite 904, Ottava, Ontario, K1P5H9 | +1(613)2880497 | azerbaijan@azembassy.ca<br>www.azembassy.ca |
| 13 | İngiltərə (səfirlik - həmçinin İrlandiya,Norveç və İsveç yanında akkredite olunmuşdur) | London,4 Kensigton Court,W8 5DL | +44(207)9383412 | sefir@btinternet.com<br>www.azembassy.org.uk |
| 14 | Fransa (səfirlik) | Paris, Rue de la Universite 209 | +33 (1)44186020 | ambazer@wanadoo.fr<br>www.amb-azerbaidjan.fr |

| № | Ölkə | Ünvan | Əlaqə telefonları | İnternet ünvanı |
|---|---|---|---|---|
| 15 | Hollandiya (səfirlik) | Laan Copes van Cattenburch 127<br>2585 EZ,The Hague | + 3170 3921939<br>+31703609743 | info@azembassy.nl |
| 16 | İsveçrə (səfirlik) | Dalmaziquai 27,<br>CH 3005 Bern | + 41313505040 | info@azembassy.ch<br>www.azembassy.ch |
| 17 | Moldova (səfirlik) | Kishinev,1271 Shtefan Chel Mari Str. | +37322214209 | azembassy@moldnet.md |
| 18 | Ukrayna (səfirlik) | Kiev, Glubochitska 24 | +380(44)4846939<br>+380(44)4846940<br>+380(44)4846947 | embaz@iiuet.kiev.ua<br>www.azembassy.org.ua |
| 19 | Yunanıstan (səfirlik) | 10,Skoufa str,10673 Kolonaki-Athens Cemendar section: 23,Vasilissis Sofias Ave. | +302103632721 | embassy@azembassy.gr<br>www.azembassy.gr |
| 20 | Özbəkistan (səfirlik) | Tashkent,Shark Tongi 25 | +998(71)1736167 | sefir@tsk.sarkor.uz<br>www.azembassy.uz |
| 21 | Türkmənistan (səfirlik) | Ashgabad, str.2062, house44 | +99312364608<br>+99312364609 | azsefir_ashg@online.tm<br>www.azembassyashg.com |

# QEYDLƏR

# QEYDLƏR

# QEYDLƏR

Beynəlxalq Miqrasiya Təşkilatı, Azərbaycan
© 2010